UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.1.307

XƏYALƏ YUSİFOVA*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN PLAKAT SƏNƏTİNDƏ MÖVZU MÜXTƏLİFLİYİ

*Məqalədə Azərbaycanın müstəqillik dövründə yaradılmış plakat sənətinin mövzu müxtəlifliyi təhlil edilmişdir. Plakatların ictimai, siyasi, iqtisadi və mədəni inkişafla sıx bağlı olduğu vurğulanmış, milli kimlik, Qarabağın azadlığı, ailə dəyərləri, təhsil, sağlamlıq və ətraf mühit kimi əsas mövzular araşdırılmışdır. M.Abdullayevin "Bağışla, Şuşa!" və "Evimi yıxma!", həmçinin K.M.Abdinovun "Tikək, quraq, qoruyaq" plakatlarının kompozisiya və məzmun baxımından təhlili aparılmışdır. Hər bir plakatın əsas mesajı, vizual strukturu və cəmiyyətə təsiri müzakirə olunmuş, plakat sənətinin milli irs və ictimai maarifləndirmə baxımından rolu izah edilmişdir.*

***Açar sözlər:*** *plakat, müstəqillik, vizual, təsvir*

**Giriş**

Azərbaycanın müstəqillik dövründə yaradılmış plakatlarının mövzu müxtəlifliyi ölkənin ictimai, siyasi, iqtisadi və mədəni inkişafı ilə sıx əlaqəli olaraq, çox geniş bir sahəni əhatə edir. Qeyd edilən dövr üzrə yaradılmış plakatlar, həm keçmişin acılarını, həm də gələcəyə dair ümid və nailiyyətləri tərənnüm etmək üçün güclü vizual vasitə kimi çıxış etmiş və etməyə də davam edir. Müasir dövrdə plakat sənətinin inkişafı, Azərbaycanın müstəqilliyini təsdiqləmək, milli dəyərləri tərənnüm etmək və müxtəlif sosial, siyasi və iqtisadi mesajları cəmiyyətə çatdırmaq məqsədi daşıyır.

**Əsas məzmun**

Bu dövrdə yaradılmış plakatlarda milli kimliyin formalaşdırılması və onun geniş kütlələrə çatdırılması əsas mövzu istiqamətlərindən biri olmuşdur. Müstəqilliyin ilk illərində Azərbaycanın suverenliyinin və dövlətçiliyinin əhəmiyyətini vurğulayan dövlət rəmzləri – bayraq, himn və gerb – plakatlarda xüsusi yer tutmuş. Bununla yanaşı, təbii olaraq Qarabağ müharibəsi və torpaqların işğalı mövzuları, şəhidlərimizin qəhrəmanlığı və vətən uğrunda mübarizəsi plakatlarda tez-tez əks olunmuşdur. Bu yaradıcılıq nümunələri xalqda vətənpərvərlik hissini gücləndirmək, milli birlik və həmrəyliyi möhkəmləndirmək məqsədi daşımışdır.

Məsələn müəllif M.Abdullayevin yaratdığı "Bağışla, Şuşa!" yaradıcılıq nümunəsi (kağız, qarışıq texnika, 90x60 sm.) Azərbaycan ictimai-siyasi plakat sənətinin müstəqillik dövründəki nümunələrindən biri olmaqla, öz strukturunda həm tarixi, həm də mədəni komponentləri sintez edərək dərin məzmunlu mesaj təqdim edir. Plakat həm sosial, həm siyasi, həm də estetik aspektləri ilə tədqiq edilməyə layiqdir. Nümunənin əsas semantik mərkəzi olan "Bağışla, Şuşa!" ifadəsi, dərin mənəvi və tarixi mənaları ehtiva edir. Bu ifadə, bir tərəfdən, Şuşanın keçmişdə işğal dövründə üzləşdiyi dağıntılar və laqeyd münasibətlə bağlı cəmiyyətin kollektiv vicdanını əks etdirdiyi halda, digər tərəfdən, bu çağırış yenidənqurma və milli irsə sahib çıxma istiqamətində tarixi məsuliyyəti vurğulayır. Şriftlərin iri, sadə və qara hərflərlə təqdim edilməsi onun vizual dominantlıq təşkil etməsini təmin edir və plakatın əsas məqsədini birbaşa auditoriyaya çatdırır. Bu tipli dizayn həlli tamaşaçının diqqətini məhz bu mətni oxumağa və onun mənasını düşünməyə yönəldir.

Plakatın vizual strukturunda mövcud olan komponentlər – xəritə, Şuşa qalası və Qarabağ xalçaçılıq məktəbinə məxsus milli nümunənin təsviri – müstəqillik dövrünün sosial və mədəni dəyərlərini əks etdirən əsas məqamları əhatə edir. Xəritə elementinin daxil edilməsi Şuşa və Qarabağın Azərbaycanın ərazi bütövlüyü üçün strateji əhəmiyyətini vizual olaraq ifadə edir. Coğrafi təsvir, işğal dövründə bu ərazilərin əhəmiyyətini yenidən dərk etmək və onların tarixi mənsubiyyətini xatırlatmaq üçün əsas funksiyaya malikdir. Bu element plakatda həm məlumatlandırıcı, həm də simvolik rol oynayır. Mərkəzdə yerləşən Şuşa qalasının təsviri plakatın emosional təsirini artırmaq üçün məqsədyönlü

olaraq seçilmişdir. Onun plakatdakı təsviri onun memarlıq xüsusiyyətlərini sadəcə bir görüntü kimi deyil, həm də mübariz və əzmkarlıq ruhunun vizual ifadəsi kimi təqdim edilir. Plakatda qalaya xüsusi olaraq solğun, amma məğrur bir estetika verilməsi onun Azərbaycanın tarixində dəyişməz bir simvol olduğunu vurğulayır. Plakatın sağ hissəsində yerləşən xalça təsviri isə Azərbaycan mədəniyyətinin və milli kimliyinin vizual simvolu kimi çıxış edir. Xalça, həm tarixi ənənələrin davamlılığını, həm də mədəni irsin qorunması zərurətini vurğulayan güclü bir simvol olaraq tərtibata daxil edilmişdir. Xalça motivləri milli incəsənətə bağlılığı göstərməklə yanaşı, Şuşanın yalnız coğrafi deyil, həm də mədəni bir miras kimi əhəmiyyətini önə çəkir. Bu element Azərbaycan xalqının öz tarixi və mədəni dəyərlərinə sahib çıxma məsuliyyətini simvollaşdırır.

Plakatın rəng palitrası onun semantik məzmununu gücləndirir. Xəritədə istifadə olunan qırmızı və mavi rənglər Azərbaycanın milli atributlarını xatırladır. Rənglərin harmoniya təşkil etməsi plakatın həm estetik, həm də emosional təsirini artırır.

İkinci Qarabağ müharibəsində əldə edilən zəfərdən sonra yaradılan plakatlar isə bu sahədə xüsusilə əhəmiyyət kəsb edir. Həmin plakatlar torpaqların azad edilməsi, şəhidlərin qəhrəmanlığı və Qarabağın bərpası ilə bağlı mövzuları əhatə edir. Zəfər ruhunu əks etdirən bu plakatlar, həm də Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu dünyaya göstərmək məqsədini güdür.

Müstəqillik dövründə yaradılmış iqtisadi inkişaf və Azərbaycanın enerji strategiyası ilə bağlı plakatlar da diqqətəlayiqdir. "Əsrin müqaviləsi" kimi mühüm layihələrin əhəmiyyəti, ölkənin enerji resurslarının dünya bazarına çıxarılması və iqtisadi potensialın artırılması plakatlarda tərənnüm edilmişdir. Bununla yanaşı, müstəqillik illərində plakatlar vasitəsilə iqtisadi islahatların vacibliyi, sahibkarlığın inkişafı və texnoloji yeniliklərin də vurğulanması aktualdır. Cəmiyyətin diqqətini innovativ iqtisadiyyata və texnologiya sahəsinə yönəltmək üçün hazırlanan plakatlar müasir dövrün tələblərinə cavab verən mesajlar təqdim edir. Məsələn, Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması və dünya arenasında mövqeyini gücləndirməsi ilə bağlı, "Əsrin müqaviləsi" və enerji siyasətinin əhəmiyyətini vurğulayan, neft strategiyasının nəticələri, iqtisadi inkişaf və infrastruktur layihələrini nümayiş etdirən, sahibkarlığın inkişafı və innovativ iqtisadiyyata keçid ilə bağlı plakatların əhəmiyyəti danılmazdır.

Misal olaraq, rəssam K.M.Abdinovun kompüter qrafikasında həll etdiyi "Tikək, quraq, qoruyaq" (50x70 sm.) adlı nümunəsinin kompozisiyası maraq doğurur. Plakat, Azərbaycanın enerji strategiyasının və onun ictimai rifah üçün əhəmiyyətinin vurğulanması məqsədini daşıyan kompozisiyası ilə diqqət çəkir. Onun tərtibatında istifadə olunan vizual elementlər, yazı və simvolik təsvirlər birgə harmoniya yaradaraq əsas mesajı aydın və təsirli şəkildə çatdırır. Plakat iki əsas hissəyə bölünüb: sol tərəfdə insan üzləri və emosional təsirə malik elementlər, sağ tərəfdə isə sənaye mənzərəsi və mesajın əsas konteksti yerləşir ki, bu bölünmə insan faktorunun və sənaye proseslərinin bir-birinə bağlılığını vurğulamaq məqsədi daşıyır. Soldakı təsvir emosional bağ yaratdığı halda, sağdakı təsvir bu emosional bağı konkret iqtisadi və strateji məna ilə tamamlayır.

Plakatın sol hissəsində yaşlı bir qadın və iki uşaq təsvir olunub. Yaşlı qadının düşüncəli siması və uşaqların ümid dolu baxışları yaradıcılıq nümunəsinin əsas emosional komponentləridir. Bu təsvirlər Azərbaycan cəmiyyətinin keçmişdən gələcəyə keçidini və nəsillərarası bağlılığı simvolizə edir. Qadının üz ifadəsi məsuliyyət və təcrübəni, uşaqlar isə ümid və gələcək perspektivini əks etdirir.

Plakatın sağ hissəsində neft buruqları və boru kəmərləri təsvir olunub. Bu görüntü Azərbaycanın enerji strategiyasını və neftin milli iqtisadiyyat üçün əhəmiyyətini simvolizə edir. Gün batımı fonunda buruqların təsviri iqtisadiyyatın və təbii ehtiyatların milli rifah üçün rolunu vurğulayır. Günəşin təsviri həm də ümid və enerji simvolu kimi dəyərləndirilir.

Plakatda mətn əsasən iki hissəyə bölünüb: "Tikək, Quraq, Qoruyaq" və "Neft hamımızın rifahına xidmət etməlidir". Bu ifadələr ardıcıllıq təşkil edərək həm fəaliyyətə çağırış, həm də məqsəd bəyanı yaradır. "Tikək, Quraq, Qoruyaq" ifadəsi gələcəyə yönəlmiş bir planın bütün mərhələlərini – tikinti, inkişaf və qorumanı əhatə edir. İkinci ifadə isə bu strategiyanın sosial məqsədini – neftin yalnız iqtisadi yox, həm də cəmiyyətin rifahı üçün istifadə edilməsini vurğulayır.

Rəng seçimi də plakatın mesajını gücləndirən əsas elementlərdən biridir. Gün batımının narıncı və qızılı tonları ümumi atmosferi istilik və ümid hissi ilə təmin edir. Sol hissədə insan təsvirləri

daha yumşaq və təbii rənglərlə işlənib, sağda isə sənaye mənzərəsi sərt və strukturlu bir estetikaya malikdir. Bu kontrast eyni zamanda insan və texnologiya arasındakı tarazlığı vurğulayır.

Müstəqillik dövründə yaradılmış plakatlarda sosial mövzular da əhəmiyyətli bir yer tutur və bu, cəmiyyətin müxtəlif sosial problemlər barədə məlumatlandırılmasında, eləcə də ictimai məsuliyyətin artırılmasında mühüm rol oynayır. Ailə dəyərlərinin qorunması ilə bağlı plakatlar, milli mədəniyyətin və ənənələrin yaşadılması, eyni zamanda ailə dəyərlərinin möhkəmləndirilməsi məqsədini güdür. Bu cür plakatlarda valideyn-uşaq münasibətləri, ailə birliyinin önəmi və sevgi dolu bir mühitin yaradılması əsas mövzular kimi əks etdirilir.

Təhsil və maarifləndirmə mövzusu da müasir plakat sənətində geniş əksini tapmışdır. Təhsilin inkişafı, elmə və bilik əldə etməyə çağırış bu plakatların əsas mesajlarından biridir. Plakatlarda müəllimlər, tələbələr və təhsil mühiti vizual şəkildə əks etdirilərək cəmiyyətin bu sahəyə diqqəti artırılır. Maarifləndirmə yalnız təhsillə məhdudlaşmır, eyni zamanda müxtəlif sosial problemlər, sağlam həyat tərzi və ətraf mühitin mühafizəsi ilə bağlı mesajlar da çatdırılır. Təhsilin cəmiyyətin gələcəyindəki əhəmiyyəti vurğulanaraq, hər bir fərdin öz bilik və bacarıqları ilə ölkənin inkişafına töhfə verə biləcəyi fikri plakatlar vasitəsilə təbliğ olunur.

Narkomaniyaya qarşı mübarizə ilə bağlı plakatlar isə xüsusilə gənclər arasında böyük əhəmiyyət kəsb edir. Bu plakatlarda gənclərin həyatlarını məhv edən zərərli vərdişlərdən uzaq durmaları üçün maarifləndirici və xəbərdaredici mesajlar çatdırılmışdır. Narkotiklərin dağıdıcı təsiri, həm vizual, həm də mətn vasitəsilə güclü təsir yaradan şəkildə təqdim olunur. Bu plakatlar cəmiyyətdə narkotiklərə qarşı mənfi münasibət formalaşdırmaq və gəncləri sağlam həyat tərzinə təşviq etmək məqsədi daşıyır.

Korrupsiyaya qarşı çağırışlar və insan hüquqlarının müdafiəsi də plakatların diqqət mərkəzində olmuşdur. Korrupsiya ilə mübarizə mövzusunda hazırlanan plakatlar cəmiyyətin bu probleminə qarşı həssaslığını artırmağa və şəffaf idarəetmənin təşviqinə yönəlmişdir. Bu plakatlar, bir tərəfdən, korrupsiyanın cəmiyyətin inkişafına mane olduğunu vurğulayır, digər tərəfdən isə fərdləri ədalət və dürüstlük prinsiplərinə əməl etməyə çağırır. İnsan hüquqlarının müdafiəsi ilə bağlı plakatlar isə hüquqların tanınması, müdafiəsi və bərabər imkanların yaradılması istiqamətində maarifləndirici bir vasitə kimi çıxış edir.

Müasir Azərbaycan palakatlarındakı digər mövzulardan biri də sağlamlıqla bağlıdır. Sağlam həyat tərzinin təşviqi, xəstəliklərdən qorunma tədbirləri, eləcə də tibbi xidmətlərin vacibliyi plakatların əsas mövzularından olmuşdur. Xüsusilə, pandemiya və ya ictimai sağlamlıqla bağlı digər fövqəladə hallarda hazırlanan plakatlar cəmiyyətdə həm profilaktik tədbirləri təşviq etmiş, həm də maarifləndirici rola malik olmuşdur. Bu plakatlarda rəngarəng və nəzərəçarpan vizual elementlərdən istifadə etməklə, mesajların daha geniş auditoriyaya çatdırılması hədəflənir.

Ətraf mühitin mühafizəsi də sosial mövzulu plakatlarda tez-tez əks olunmuşdur. Təbii sərvətlərin qorunması, yaşıllıqların artırılması, tullantıların düzgün idarə olunması və ekoloji tarazlığın saxlanılması kimi mövzular bu plakatların əsas məzmununu təşkil edir. Ətraf mühitin qorunması ilə bağlı mesajlar, təkcə milli səviyyədə deyil, qlobal perspektivdə də aktualdır və bu mövzular ictimai şüurun formalaşmasına xidmət edir. Misal olaraq, "Evimi yıxma!" (müəllif: M.Abdullayev, kompüter qrafikası, 60x90 sm.) adlı palakat plakatı, ətraf mühitin mühafizəsinə dair insan məsuliyyətini simvolik şəkildə ifadə edir. Plakat ekoloji şüurun artırılması və təbiətin qorunması üçün maarifləndirici funksiyanı daşıyır. Təsvirin qrafik sadəliyi və simvolizmi vasitəsilə verilən mesaj həm emosional, həm də məntiqi təsir yaradır. Evin ağac gövdəsi ilə birbaşa əlaqələndirilməsi, təbiətə qarşı qeyri-etik davranışın, məsələn, ağacların kəsilməsinin insanın özünə zərər vurduğu fikrini çatdırır. Plakatın arxa fonundakı narıncı rəng isə həm təbiətin istiliyini, həm də təhlükə siqnalını təmsil edir, bu da təcili hərəkətə keçmək çağırışını daha da gücləndirir.

Mədəniyyət və idman sahələri də plakat sənətində geniş şəkildə təmsil olunmuşdur. Milli musiqi, ədəbiyyat və mədəniyyətin təbliği, eləcə də beynəlxalq idman yarışlarının təşkili ilə bağlı plakatlar Azərbaycanın dünyada tanıdılmasında mühüm rol oynamışdır. I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və Formula 1 kimi tədbirlər üçün yaradılan plakatlar, Azərbaycanın müasir və qlobal bir ölkə imicini formalaşdırmışdır.

**Nəticə**

Nəticə olaraq qeyd edək ki, sosial mövzulu plakatlar plakatlar, bir tərəfdən, cəmiyyətin mövcud sosial problemlərdən xəbərdar edilməsinə və maarifləndirilməsinə xidmət edir, digər tərəfdən isə hər bir fərdi daha məsuliyyətli və fəal ictimai mövqeyə çağırır. Onların estetik və semantik gücü, mesajların təsirli şəkildə çatdırılmasını təmin edir və ictimai dəyərlərin möhkəmlənməsinə dəstək olur.

**ƏDƏBİYYAT**


1. İbrahimov, T. Azərbaycan plakatı bu gün. Bakı İncəsənət Mərkəzi: 2003
2. İbrahimov, T. Azərbaycanda plakat sənəti. Bakı: 2004
3. Xəlilzadə, F. Bədii plakatın dili ilə. Azərbaycan, 2010, 19 yanvar, s 7.
4. https://www.aem.az/azerbaycan-plakat-senetnn-esas-xarakterk-xususyyetler


***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı**
**E-mail: xeyaleyusifova <xeyaleyusifova@icloud.com>***

**Khayala Yusifova**

**DIVERSITY OF THEMES IN AZERBAIJANI POSTER ART DURING THE PERIOD OF INDEPENDENCE**

In the article the theme diversity of poster art created in the period of independence of Azerbaijan is analyzed. It was mentioned that the posters are closely related to social, political, economic and cultural development, the main themes such as national identity, freedom of Karabakh, family values, education, health and the environment are studied. The analysis of the poster works such as “Sorry, Shusha!” and “Don’t destroy my house!” by M.Abdullayev and “Let’s build, form and protect” by K.M.Abdinov are carried out in terms of composition and content. The main message of each poster, its visual structure and impact on society are discussed, the role of poster art in terms of national heritage and public awareness is explained.

**Keywords:** *poster, independence, visual, description, etc.*

**Хаяле Юсифова**

**ТЕМАТИЧЕСКОЕ РАЗНООБРАЗИЕ АЗЕРБАЙДЖАНСКОГО ПЛАКАТНОГО ИСКУССТВА В ПЕРИОД НЕЗАВИСИМОСТИ**

В статье анализируется тематическое разнообразие плакатного искусства, созданного в период независимости Азербайджана. Автор подчеркивает, что плакаты тесно связаны с социальным, политическим, экономическим и культурным развитием. В статье были исследованы такие ключевые темы, как национальная идентичность, свобода Карабаха, семейные ценности, образование, здравоохранение и окружающая среда. «Прости, Шуша!» М.Абдуллаева и «Не разрушай мой дом!», а также плакаты К.М.Абдинова «Построим, создадим, защитим» были проанализированы с точки зрения композиции и содержания. Обсуждаются основной посыл, визуальная структура и влияние каждого плаката на общество, а также объясняется роль плакатного искусства с точки зрения национального наследия и общественного образования.

**Ключевые слова:** *плакат, независимость, визуальный, образ*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 21.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**